# Azərbaycan Xalq Parlamentinin Reqlamenti
# (iş qaydası)

*Azərbaycan Respublikası Xalq Parlamentinin*
*11.01.2025-cü il tarixli iclasında qəbul edilib*

*Parlamentin 08.02.2025 tarixli və 01.11. 2025-ci il tarixli*
*qərarları ilə əlavələr və dəyişikliklər edilib*

Azərbaycan Xalq Parlamentinin (bundan sonra Xalq Parlamenti) Reqlamenti (bundan sonra: Reqlament) Azərbaycan Respublikasının qanunvericiliyinə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq hüquq normalarına və AzXP-nin Nizamnaməsinə uyğun olaraq hazırlanıb.

## 1. Xalq Parlamenti haqqında ümumi müddəalar

1.1. Xalq Parlamenti - xalq və dövlət maraqları naminə demokratik, azad və ədalətli seçkilər əsasında yaradılmış, Azərbaycanda demokratiya, insan haqları və qanunun aliliyinin bərpasını, xalq tərəfindən seçilmiş legitim hakimiyyətin formalaşdırılmasını hədəfləyən, fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan, mülkiyyətində ola biləcək əmlakı və sair maddi nemətləri (pul, qiymətli kağızlar, vərəsəliklə keçən əmlak və s.) öz üzvlərinin arasında bölməyən ictimai-siyasi təsisatdır.

1.2. Xalq Parlamenti Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, BMT Baş Məclisinin 16 dekabr 1966-cı il tarixli "Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt"ına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə uyğun olaraq:

- vətəndaşların dövlətin idarə olunmasında iştiraka cəlb edilməsi.
- əsas insan və vətəndaş hüquqlarının müdafiəsi.
- mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi.
- mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili.
- mərkəzi və yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması.
- dövlət siyasətinin formalaşması, həyata keçirilməsi və qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarının nəzərə alınması. • ölkəmizdə qanuni hakimiyyətin bərpası məqsədilə yaradılıb.

1.3. Xalq Parlamentinin tərkibi 125 (yüz iyirmi beş) millət vəkilindən ibarətdir. 1.4. Xalq Parlamentinə: "hörmətli millət vəkilləri", Xalq Parlamentinin üzvünə "hörmətli millət vəkili"-deyə, müraciət edilir.

1.5. Xalq Parlamenti öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının milli qanunvericiliyinə, qoşulduğu beynəlxalq müqavilələrə, Xalq Parlamentinin Nizamnaməsinə və bu Reqlamentə uyğun həyata keçirir. 1.6. Xalq Parlamentinin abreviaturası AzXP-dir.

1.7. Xalq Parlamentinin mənzil qərargahları Bakı və Brüssel şəhərlərində yerləşir.

## 2. Xalq Parlamentinin fəaliyyətinin əsasları

2.1. Xalq Parlamenti qarşısında duran vəzifələri müstəqil həyata keçirir və yalnız Azərbaycan xalqı qarşısında hesabat verir.

2.2. Xalq Parlamentinin fəaliyyətinin əsas prinsipləri:

- aşkarlıq,
- könüllülük;
- siyasi plüralizm,
- fərdi və kollektiv təşəbbüskarlıq,
- tolerantlıq,
- əks fikirə dözümlülük,
- mədəni davranış,
- milli adət və ənənələrə, əxlaq və mənəviyyat prinsiplərinə sadiqlik, • məsələlərin sərbəst müzakirəsi,
- insan ləyaqətinə hörmət,
- təşəbbüs müəllifinin öz təklifinin icrasını təşkil etmək,
- əsas insan hüquq və azadlıqlarına hörmət təşkil edir.

2.3. Xalq Parlamentinin hər çağırışının növbəti və növbədənkənar sessiyaları ardıcıl sıra sayı ilə adlanır. Xalq Parlamentinin iclasları Azərbaycan Respublikasının dövlət himni ilə açılır və bağlanır.

2.4. Xalq Parlamenti növbəti və növbədənkənar iclaslar keçirir.

2.5. Xalq Parlamentinin millət vəkillərinin Xalq Parlamentinin iclaslarında iştirakı məcburidir.

2.6. Növbədənkənar iclaslar Rəyasət Heyətinin və ya ən azı 20 millət vəkilinin təşəbbüsü ilə Parlament sədri tərəfindən çağırılır.

2.7. Xalq Parlamenti fasiləsiz olaraq fəaliyyət göstərir.

2.8. Millət vəkilləri ictimai əsaslarla, əmək haqqı almadan fəaliyyət göstərir və onun fəaliyyəti parlament üzvlərinin, vətəndaşların və təşkilatların könüllü şəkildə verdikləri ianələr hesabına maliyyələşir.

## 3. Xalq Parlamentinin iclaslarının keçirilmə qaydası

3.1. Yeni seçilmiş Xalq Parlamentinin ilk iclasının keçirilməsi vaxtının təyin edilməsi: 3.1.1. Xalq Parlamentinin ən azı 83 (səksən üç) millət vəkilinin səlahiyyətləri Seçki Komissiyası tərəfindən təsdiq edildikdən sonra Xalq Parlamentinin ilk iclası həmin gündən başlayaraq iki həftədən gec olmayaraq çağırılır.

3.1.2. Xalq Parlamentinin Seçki Komissiyası Xalq Parlamentinin ən azı 83 (səksən üç) millət vəkilinin seçildiyini təsdiq edərsə, həmin iclasda yeni seçilmiş Xalq Parlamentinin ilk iclasının keçirilməsi vaxtını da təyin etməlidir.

3.1.3. Xalq Parlamentinə seçkilərdən sonra bir həftə ərzində onun ən azı 83 (səksən üç) millət vəkilinin səlahiyyətləri Seçki Komissiyası tərəfindən təsdiq edilməzsə, Xalq Parlamentinin əvvəlki çağırışın Rəyasət Heyəti Xalq Parlamentinin ilk iclasının keçirilmə vaxtını müəyyən edir.

3.2. **Xalq Parlamentinin növbəti çağırışlarının birinci iclası:**

3.2.1. Xalq Parlamentinin növbəti çağırışlarının birinci iclasını Xalq Parlamentinin ən yaşlı nümayəndəsi açır, onun təklifi ilə Xalq Parlamentinin iclasını aparmaq üçün 3 (üç) nəfərdən ibarət sədarət seçilir. Sədarət üzvlərindən biri seçilmiş millət vəkillərinin siyahısını oxuyur və sədarət Xalq Parlamentinin Rəyasət Heyyəti seçilənədək birinci iclası aparır.

3.2.2. Xalq Parlamentinin birinci iclasında elektron səsvermə proqramı vasitəsilə, gizli səsvermə yolu ilə, Xalq Parlamentinin 5 (beş) nəfərdən ibarət Rəyasət Heyyəti, 5 (beş)
nəfərdən ibarət Hesablayıcı Komissiyası və 5 (beş) nəfərdən ibarət İntizam Komissiyası seçilir. Bununla da Xalq Parlamentinin növbəti çağırışının birinci iclası işini bitirir.

3.3. **Xalq Parlamentinin iclasları:**

3.3.1. Xalq Parlamentinin iclasları seçilmiş millət vəkillərinin ən azı üçdə biri iştirak etdikdə səlahiyyətlidir.

3.3.2. Xalq Parlamentinin iclasları açıq, aşkarlıq şəraitində keçirilir və media ilə canlı olaraq işıqlandırılır.

3.3.3. Xalq Parlamentinin ən azı 20 millət vəkilinin tələbi, fraksiyalardan birinin, İntizam Komissiyasının və ya Xalq Parlamenti Rəyasət Heyətinin təklifi ilə iclas qapalı keçirilə bilər.

3.3.4. Xalq Parlamentinin qapalı iclaslarının məzmunu yalnız həmin iclasda iştirak edən millət vəkillərinin yarıdan çoxunun razılığı və ya Rəyasət Heyətinin qərarı ilə aşkarlana, mətbuatda yayıla bilər.

3.3.5. Azərbaycan Respublikasının istənilən şəxsinin, Rəyasət Heyətinin müəyyən etdiyi qaydalara uyğun olaraq, Xalq Parlamentinin bütün iclaslarında iştirak etmək hüququ vardır.

3.3.6. Xalq Parlamentinin iclasları dövlət dilində keçirilir. Azlıqda qalan etnosların nümayəndələri dövlət dilində etdikləri müraciətləri öz seçicilərinə, təkrar olaraq, ana dillərində də edə bilərlər. Xalq Parlamentinin iclasında iştirak edən xarici qonaqlar başqa dillərdə də çıxış edə bilərlər. Bu çıxışlar dövlət dilinə tərcümə edilir.

3.3.7. Xalq Parlamentinin, Xalq Parlamenti Sədrinin və Rəyasət Heyyətinin üzvlərinin dəvət etdiyi başqa şəxslər də, Rəyasət Heyətinin müəyyən etdiyi qaydalara uyğun olaraq, Xalq Parlamentinin iclaslarında iştirak edə bilərlər.

3.3.8. Açıq iclaslar keçirilərkən Xalq Parlamentinin iclas salonuna (media platformasına) medianın Xalq Parlamentində qeydə alınmış nümayəndələri daxil ola bilər. 3.3.9. Videokonfrans sistemi vasitəsilə keçirilən iclaslarda qeydiyyat və səsvermə xüsusi proqram vasitəsilə həyata keçirilir və bu vaxt səsvermənin nəticələrini Parlament sədri elan edir.

3.4. **Xalq Parlamentinin iclaslarının protokolları**

3.4.1. Xalq Parlamentinin bütün iclasları video çəkiliş formasında protokollaşdırılır və arxivləşdirilir. Bu işlər Parlamentin Rəyasət Heyəti tərəfindən təşkil edilir. 3.4.2. Xalq Parlamentinin iclasının protokolunu iclasa sədrlik edən və Rəyasət Heyətinin üzvlərindən ən azı biri imzalayır.

3.4.3. Xalq Parlamentinin açıq iclaslarının protokolları və videoçəkilişləri hamı üçün açıqdır və kütləvi informasiya vasitələrində, eləcə də Xalq Parlamentinin rəsmi saytı olan azxp.info-da yerləşdirilir.

3.4.4. Millət vəkilinin, Xalq Parlamentinin iclasının protokolları və ya videoçəkilişləri rəsmi yayılanadək öz çıxışının mətni ilə tanış olmaq hüququ vardır. Bununla əlaqədar mübahisə yaranarsa, məsələ Xalq Parlamentinin İntizam komissiyasında həll edilir.

4. **Xalq Parlamentinin fəaliyyət formaları**

4.1. Xalq Parlamenti sessiyalar formatında fəaliyyət göstərir. Sessiyalar növbəti və ya növbədənkənar iclaslardan ibarətdir.

4.2. Xalq Parlamentinin növbəti və növbədənkənar iclaslarından kənar vaxtlarda onun komitə

və komissiyalarının iclasları keçirilir.

4.3. Xalq Parlamentinin iclasları, bir qayda olaraq, hər həftənin şənbə günü keçirilir. Xalq Parlamentinin iclaslarının saatını Xalq Parlamentinin Sədri təyin edir.

4.4. Xalq Parlamentinin komitə və komissiyalarının iclasları, bir qayda olaraq, həftədə bir dəfədən az olmayaraq keçirilir. Xalq Parlamentinin komitə və komissiya iclaslarının gününü və saatını Xalq Parlamentinin müvafiq komitə və komissiyasının sədri təyin edir. Xalq Parlamentinin komitə və komissiyalarının işi fasiləsiz davam edir və Xalq Parlamentinin millət vəkilləri komitə və komissiyaların işində iştirak edirlər.

### 5. **Xalq Parlamentinin iclaslarında millət vəkillərinin qeydiyyatı**

5.1. Xalq Parlamentinin iclasları iclasda iştirak edən millət vəkillərinin qeydiyyatı ilə başlanır. Qeydiyyat iclas rəsmi olaraq başlamazdan 30 dəqiqə öncə həyata keçirilir. 5.2. Millət vəkillərinin qeydiyyatını İntizam Komissiyası elektron səsvermə sistemi vasitəsi ilə aparır, bu mümkün olmazsa, qeydiyyat millət vəkillərininin adbaad çağırılması üsulu ilə aparılır.

5.3. Üzürlü səbəbdən iclaslarda iştirak edə bilməyən millət vəkilləri qabaqcadan Xalq Parlamentinin Rəyasət Heyətinə və İntizam Komissiyasına məlumat verməlidir. 5.4. İclasın hər fasiləsindən sonra millət vəkillərinin qeydiyyatı keçirilir. Fasilədən sonra Xalq Parlamentinin iclasında üzürsüz səbəbdən qeydiyyatdan keçməyən millət vəkili həmin iclasda iştirak etməmiş hesab edilir.

5.5. Millət vəkili Xalq Parlamentinin iclasında üzürlü səbəbdən iştirak edə bilməyəcəksə, qabaqcadan Parlament Sədrindən icazə almalıdır. İcazə alaraq iclasda iştirak etməmək üzürlü səbəb sayılır.

### 6. **Xalq Parlamentinin iş planı**

6.1. Xalq Parlamenti il ərzində görəcəyi işlərin planını sessiyalar üzrə tərtib edir. Xalq Parlamentinin sessiyaları həmin illik plana uyğun olaraq keçirilir. Xalq Parlamentinin qərarlarının həyata keçirilməsinə Rəyasət Heyyəti tərəfindən nəzarət edilir. 6.2. İllik iş planı üzrə görüləcək işləri Komitələr arasında Rəyasət Heyəti bölür.

### 7. **Xalq Parlamentinin iclaslarında millət vəkilinin hüquqları**

7.1. Xalq Parlamentinin iclaslarında millət vəkilinin:

- təşəbbüslə çıxış etmək.
- müzakirə olunan məsələlər barəsində münasibət bildirmək.
- təkliflər vermək.
- iclasın gedişində istədiyi vasitə ilə qeydlər etmək.
- çıxış edənlərə və Xalq Parlamenti tərəfindən hər hansı vəzifəyə təyin edilən və ya hər hansı vəzifəyə seçilmək üçün namizədliyini verən şəxslərə suallar vermək. • arayış vermək, səsvermədə iştirak etmək, "lehinə" və ya "əleyhinə" səs vermək hüququ vardır.
- Parlament iclaslarında müzakirə edilən vəzifələrə öz namizədliyini və ya başqalarının namizədliyini irəli sürmək.

7.2. Xalq Parlamentinin iclaslarında baxılacaq sənədlər və ya qərar layihələri Xalq Parlamentinin iclasına ən azı 48 saat qalmış Parlament sədri tərəfindən millət vəkillərinə çatdırılmalıdır.

### 8. **Xalq Parlamentinin iclaslarında iştirak edənlərə aid tələblər**

8.1. Xalq Parlamentinin iclaslarında iştirak edənlər parlament etikasını gözləməlidirlər. Onlar:

- iclasların aparılmasına mane olmamalı,

- çıxış edənlərin sözünü kəsməməli,
- iclasın normal gedişini və iş qaydasını pozmamalı,
- insanın şərəf və ləyaqətini alçaldan kobud, təhqiramiz hərəkətlərə və sözlərə yol verməməli,
- qanunsuz hərəkətlərə çağırmamalıdır.

8.2. Xalq Parlamentinin iclasına sədrlik edən parlament etikasını gözləməyənlərə:
- xəbərdarlıq edir.
- təkrar pozuntuya yol verilərsə, bütün iclas günü ərzində həmin şəxsi sözdən məhrum edir və bunu iclasda elan edir.
- özünü bu tərzdə aparmaqda davam edən şəxsi iclas salonundan (virtual toplantıdan) kənarlaşdırır.

8.3. İclasın iş qaydasının pozulması ilə əlaqədar bütün hallar Xalq Parlamentinin iclasının protokolunda qeyd olunur.

## 9. **Xalq Parlamentinin iclaslarına sədrlik edən**

9.1. Xalq Parlamentinin iclaslarına sədrlik edənin hüquqları:
- iclasın gedişinə rəhbərlik edir.
- Xalq Parlamentinin Reqlamentinə riayət olunmasını təmin edir.
- iclasda iştirak edənlərə söz verir.
- millət vəkillərinin təkliflərini sıra ilə səsə qoyur.
- səsverməni keçirir və onun nəticələrini elan edir.
- Xalq Parlamentinin üzvlərinə və Parlament Aparatının əməkdaşlarına göstərişlər verir.
- tapşırıqların icrasına nəzarət edir.
- millət vəkilləri arasında sağlam mühitin formalaşmasına səy göstərir. • iclasın protokolunu yoxlayır və imzalayır.

9.2. Xalq Parlamentinin iclaslarına sədrlik edənin vəzifələri:
- bu Reqlamentdə göstərilən qaydalara uyğun çıxış edən millət vəkilinin sözünü, səsini kəsməməli,
- onun çıxışına rəy bildirməməli,
- onu yönləndirməməli,
- onun çıxışı haqqında istədiyi rəyi yaratmağa cəhd etməməlidir.

9.3. Xalq Parlamentinin iclaslarına sədrlik edənin iclasın gedişində Azərbaycan Respublikası Konstitusiyası və qanunlarının, Xalq Parlamenti Nizamnaməsinin, bu Reqlamentin və ya "Azərbaycan Xalq Parlamenti Millət Vəkillərinin (namizədinin) etik davranış kodeksi"ndə nəzərdə tutulan müddəaların pozulması barədə məlumat vermək hüququ vardır.

9.4. Xalq Parlamentinin iclaslarına sədrlik edən, millət vəkilinə verilən bütün hüquqlardan istifadə edir və hamı üçün müəyyən edilən qaydalara əməl etməyə borcludur.

10. **Xalq Parlamentinin iclaslarında çıxışlar üçün müəyyən edilmiş vaxt** 10.1. Xalq Parlamentinin iclaslarında məruzə üçün 15 dəqiqəyədək, əlavə məruzə üçün 10 dəqiqəyədək, yekun sözü üçün 5 dəqiqəyədək vaxt ayrılır.

10.2. Müzakirələrdə iştirak edənlər üçün 5 dəqiqəyədək, təkrar çıxışlar üçün 2 dəqiqəyədək, iclasın aparılmasına dair, səsvermə mülahizələri ilə əlaqədar, namizədlər barədə çıxışlar, bəyanatlar, suallar, təkliflər, xəbərlər, arayışlar üçün 1 dəqiqəyədək vaxt ayrılır. 10.3. Müəyyən edilmiş vaxt başa çatdıqdan sonra Xalq Parlamentinin iclasına sədrlik edən çıxış edəni xəbərdar edir, sonra isə onun sözünü kəsə bilər. Xalq Parlamentinin iclasına sədrlik

edən, protokol qaydasında qəbul edilmiş qərar əsasında, bu Reqlamentdə çıxışlar üçün müəyyən edilmiş müddətləri uzada bilər.

### 11. **Xalq Parlamentinin iclaslarında çıxışların ardıcıllığı**

11.1. Xalq Parlamentinin iclaslarında çıxışlar, bir qayda olaraq, gündəlikdə müəyyən edilmiş ardıcıllıqla çıxışlara yazılanların sıra növbəsi ilə edilir. Xalq Parlamentinin iclasına sədrlik edən iclasın gedişində lazım bildikdə bu qaydanı dəyişdirə bilər.

11.2. Xalq Parlamentinin iclasında heç kəs Xalq Parlamentinin iclasına sədrlik edənin icazəsi olmadan çıxış edə bilməz. Bu qaydanı pozan şəxs xəbərdarlıqsız sözdən məhrum edilir. 11.3. Xalq Parlamentinin iclaslarında Rəyasət Heyətinin üzvlərinin növbədənkənar çıxış etmək hüququ vardır. Zərurət yarandıqda, iclasa sədrlik edən, millət vəkillərinə və Xalq Parlamentinin iclasında iştirak edən digər şəxslərə növbədənkənar söz verə bilər.

### 12. **Xalq Parlamentinin iclaslarında müzakirələrin kəsilməsi**

12.1. Xalq Parlamentinin iclaslarında hər hansı məsələnin müzakirəsi həmin məsələ ilə bağlı çıxışlara yazılanların siyahısı bitdikdə protokol qaydasında qəbul edilmiş qərar əsasında kəsilir.

12.2. Xalq Parlamentinin iclasına sədrlik edən, müzakirələrin kəsilməsi haqqında təklif alandan sonra, millət vəkillərinə müzakirələrdə çıxış etmiş və çıxış etmək istəyən şəxslərin sayı haqqında məlumat verir, çıxış etmək üçün israr edənləri müəyyənləşdirir və protokol qaydasında qəbul edilmiş qərar əsasında onlara söz verir.

12.3. Müzakirələr kəsildikdən sonra məruzəçinin və əlavə məruzəçinin yekun sözü demək hüququ vardır, bundan sonra yalnız səsvermə mülahizələri üzrə çıxışlar edilə bilər.

### 13. **Xalq Parlamentinə təqdim edilmiş layihələrin qeydiyyatı və Xalq Parlamentinin komitələrinə göndərilməsi**

13.1. Xalq Parlamentinə təqdim edilən layihələr Parlament Aparatında qeydiyyata alınır. 13.2. Təqdim edilən layihələri Parlament Sədri Xalq Parlamentinin komitəsinə göndərir və layihəyə baxılması müddətini müəyyən edir. Layihə bir neçə müvafiq komitəyə göndərildiyi halda Parlament Sədri onlardan birini aparıcı komitə təyin edir.

### 14. **Xalq Parlamentinin komitələrində layihələrin hazırlanması, razılaşdırılması və baxılması qaydası**

14.1. Xalq Parlamentinin komitələrində layihələrin hazırlanması, razılaşdırılması və baxılması qaydası Xalq Parlamentinin Nizamnaməsinə və bu Reqlamentə əsasən müəyyənləşdirilir. 14.2. Layihələr üzərində iş aparmaq üçün müvafiq komitə işçi qrupu yarada bilər. Layihələr bir neçə komitə tərəfindən hazırlanırsa, onlar birgə işçi qrupları yarada bilər. Bir məsələyə aid iki və ya daha çox layihə varsa, onlar birlikdə müzakirə edilir.

14.3. Aparıcı komitənin tapşırığı ilə Parlamentin Mətbuat Xidməti layihələrin ictimai dinləmələrini və ictimai müzakirələrini təşkil edir. İctimai dinləmə və ictimai müzakirə komitə iclası ilə birlikdə keçirilə bilər. İctimai dinləmənin və ictimai müzakirənin təşkili üçün Parlamentin Mətbuat Xidməti "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının qanununa uyğun olaraq tədbirlər görür. İctimai dinləməyə və ictimai müzakirəyə dəvət edilən şəxslər ictimai dinləmənin və ya ictimai müzakirənin keçirilməsi tarixi barədə ən azı 3 gün əvvəl xəbərdar olunurlar.

14.4. Parlament Aparatı, zəruri olan hallarda, Mətbuat Xidməti ilə birlikdə, komitənin tapşırığına əsasən, layihələrin mütəxəssislər tərfindən müzakirəsini təşkil edir və onların rəyini alır.

14.5. Millət vəkillərinin layihələrə aid qeyd və təkliflərinə aparıcı komitənin iclaslarında baxılır.
14.6. Parlamentin komitələri arasında baxılan layihələrə dair fikir ayrılığı əmələ gələrsə, aparıcı komitənin qərarı əsas götürülür. Bu qərarla razı olmayan komitənin rəyi Parlamentin bu məsələyə aid iclasında millət vəkillərinə yazılı şəkildə çatdırılır.
14.7. Hazırlanmış və ya baxılmış layihə Parlamentin iclasının gündəliyinə daxil edilmək üçün iclasa dəvət olunmalı şəxslərin siyahısı ilə birlikdə həmin dövrdə Parlamentə sədrlik edənə təqdim edilir.
14.8. Layihə müəllifi və ya onun səlahiyyətli nümayəndəsi Xalq Parlamentində layihə üzərində aparılan işdə iştirak etmək hüququna malikdir.
14.9. Layihə müəllifi istədiyi vaxt öz layihəsindən imtina edə bilər. Bu halda, layihə Rəyasət Heyyətinin adından verilmiş hesab edilir.

### 15. **Xalq Parlamentində layihənin qəbulu qaydaları və müddətləri**

15.1. Layihə ən çoxu 3 (üç) həftə müddətində baxılır və barəsində qərar qəbul edilir. 15.2. Birinci həftə layihə onu təqdim edən subyekt tərəfindən Parlament iclasında oxunur, əsaslandırılır, millət vəkillərinin layihə ilə bağlı suallarına məruzəçi tərəfindən cavablar verilir.
15.3. İkinci həftə layihə ilə bağlı millət vəkillərinin təklifləri səsləndirilir, bu təkliflər müzakirə olunur, təkliflər barədə layihə müəllifinin fikirləri dinlənilir. Edilən təkliflər haqqında ayrı-ayrılıqda qərarlar qəbul edilir.
15.4. Üçüncü həftə layihə, edilmiş əlavə təkliflər də nəzərə alınmaqla, bütövlükdə səsə qoyularaq ya qəbul edilir, ya da rədd edilir.
15.5. Sadə layihələr bir iclasda da baxılıb barəsində qərar qəbul edilə bilər.

### 16. **Xalq Parlamentinin millət vəkilliyindən məhrumetmə və mandatdan imtina etməklə bağlı məsələyə Xalq Parlamentində baxılması qaydası**

16.1. Xalq Parlamentinin Nizamnaməsində və bu Reqlamentdə göstərilən əsaslar olduqda, Xalq Parlamentinə sədrlik edən Rəyasət Heyyətinin üzvü millət vəkili haqqında məsələni İntizam komissiyasına göndərir. İntizam komissiyası bu məsələyə mandatından məhrum edilməsi nəzərdə tutulan millət vəkilinin iştirakı ilə 1 həftə müddətində baxıb müvafiq rəy qəbul edərək, həmin dövrdə Parlamentə sədrlik edənə təqdim edir. Pozuntu halları rəydə öz təsdiqini tapdıqda, Parlamentin Sədri İntizam komissiyasının millət vəkilinın mandatından məhrum edilməsi barədə rəyini Parlament iclasında müzakirəyə çıxardır.
16.2. Millət vəkilinın mandatından məhrum edilməsi haqqında qərar, gizli səsvermə yoluyla, iclasda iştirak edən millət vəkillərinin yarısından çoxunun səsi ilə qəbul edilir. 16.3. Millət vəkili Parlamentin iclasında mandatdan imtina etdiyi barədə yazılı və ya şifahi qaydada bəyanat verdikdə, həmin imtina müzakirəsiz qəbul edilir və millət vəkili bu imtinasını geri götürə bilməz. Bu halda, Parlamentin iclasına sədrlik edən, millət vəkilinin mandatdan imtina etməsi barədə bəyanatını, qeydə almaq məqsədi ilə, Xalq Parlamentinin Seçki Komissiyasına və Parlament Aparatına göndərir və bu barədə azxp.info saytında, eləcə də digər KİV-lərdə rəsmi məlumat yayır.

### 17. **Xalq Parlamentinin millət vəkilinin səlahiyyətlərinin itirilməsinin əsasları və bu məsələyə baxılması qaydası**

17.1. Millət vəkili öz səlahiyyətlərini daimi icra edə bilmədikdə və üzürsüz səbəbdən Parlament iclaslarında dalbadal 5 dəfə iştirak etmədikdə, onun səlahiyyətlərinə xitam

verilir.

17.2. Xalq Parlamentinə sədrlik edən, əmək qabiliyyətini fasiləsiz olaraq 6 aydan çox müddətə tam itirən millət vəkili barəsində olan tibbi-sosial ekspert komissiyasının rəyini və ya fəaliyyət qabiliyyətsizliyi səbəbindən öz səlahiyyətlərini daimi icra edə bilməyən millət vəkili barəsində olan məhkəmənin qüvvəyə minmiş qərarını Xalq Parlamentinin növbəti iclasında müzakirəyə təqdim edir. Müzakirə, səlahiyyətlərinin itirilməsi nəzərdə tutulan millət vəkilinin iştirakı ilə keçirilir. Həmin millət vəkilinin iclasda iştirakı mümkün olmadıqda bu məsələyə onun iştirakı olmadan baxılır. İclasda iştirak edən millət vəkilləri yalnız millət vəkilın səlahiyyətlərinin itirilməsi üçün yetərli əsasların olub-olmamasını aydınlaşdıra bilər, lehinə və ya əleyhinə çıxış edə bilərlər. Öz səlahiyyətlərini daimi icra
edə bilməyən millət vəkilının səlahiyyətlərinin itirilməsi barədə Xalq Parlamentinin qərarı sadə səs çoxluğu ilə qəbul edilir.

17.3. Parlamentdaxili məsuliyyətə cəlb olunması ilə əlaqədar millət vəkilinin səlahiyyətlərinin itirilməsinin əsasları və müvafiq qərarın qəbul edilməsi qaydası bu Reqlament ilə müəyyən edilir.

## 18. **Xalq Parlamentinin iclaslarında yetərsay, səsvermənin növləri və qaydası.**

18.1. Parlamentə sədlik edən bütün millət vəkillərinə iclasın vaxtı və yeri barədə rəsmi məlumat çatdırdıqdan sonra seçilmiş millət vəkillərinin ən azı üçdə biri iştirak etdikdə Xalq Parlamentinin iclasları səlahiyyətli hesab edilir.

18.2. Parlament üzvlərinin olduğu sosial qruplarda və AzXP-nin rəsmi saytında (azxp.info) iclasın vaxtı və yeri barədə məlumatın yayılması onun rəsmi qaydada çatdırılması hesab edilir.

18.3. Xalq Parlamentinin iclaslarında bütün təşkilati məsələlər, millət vəkilini mandatdan məhrum etmə, intizam tənbehi barədə qərarlar yalnız gizli səsvermə yolu ilə həll edilir. Digər qərarlar açıq səsvermə yoluyla, Xalq Parlamentinin azı 20 millət vəkili tələb etdikdə, gizli səsvermə yolu ilə qəbul edilir.

18.4. Xalq parlamentinin 20 üzvünün tələbi ilə istənilən məsələ barədə adbaad səsvermə keçirilə bilər.

18.5. Hər məsələ üzrə səsvermə keçirilərkən millət vəkilinin bir səsi vardır. 18.6. Səsvermə keçirilərkən, millət vəkili məsələnin qəbul olunmasının ya "lehinə", ya da "əleyhinə" səs verməlidir. Səsvermə zamanı bitərəf qalmaq və ya üzürsüz səbəbdən səsvermədə iştirak etməmək qadağandır.

18.7. Səsvermədə iştirak edən millət vəkili şəxsən səs verməlidir.

18.8. Səsvermə zamanı salonda (virtual toplantıda) olmayan millət vəkili səsvermənin nəticələri elan olunduqdan sonra səs verə bilməz.

18.9. Parlament iclasına sədrlik edən səsvermənin başlandığını elan etdikdən sonra heç kəs səsvermənin gedişini (iclasın aparılması barədə etirazların bildirilməsindən başqa) dayandıra bilməz.

18.10. Parlamentin iclasına sədrlik edən səsvermənin nəticələri müəyyənləşdirildikdən sonra onu elan edir.

## 19. **Açıq səsvermə**

19.1. Açıq səsvermə elektron sistemindən istifadə etməklə, elektron sistemindən istifadə etmədən və adbaad sorğu vasitəsilə keçirilə bilər.

19.2. Elektron sistemindən istifadə etməklə açıq səsvermə sadə və adbaad rejimdə keçirilə

bilər. Elektron sistemindən istifadə etməklə sadə rejimdə açıq səsvermə millət vəkillərinin önündəki düymələri basması yolu ilə həyata keçirilir və Parlamentin iclasının protokolunda millət vəkillərinin necə səs verdiyi göstərilmədən yalnız səsvermənin nəticələrini göstərməklə əks olunur.

19.3. Elektron sistemindən istifadə etməklə adbaad rejimdə açıq səsvermə, sadə rejimdə keçirilən səsvermə formasında həyata keçirilir, yalnız Xalq Parlamentinin iclasının protokolunda hər millət vəkilinin, necə səs verildiyi göstərilir.

19.4. Elektron sistemindən istifadə etməklə açıq səsvermə keçirildikdən sonra millət vəkilinin, habelə Parlamentdə qeydə alınmış media nümayəndəsinin həm sadə, həm də adbaad səsvermənin nəticələri haqqında siyahını almaq hüququ vardır.

19.5. Elektron sistemindən istifadə etmədən açıq səsvermə keçirilərkən səsləri Hesablayıcı Komissiya hesablayır. Elektron sistemindən istifadə etmədən açıq səsvermə zamanı Parlamentin iclasına sədrlik edən millət vəkillərinə sual verir: "kim qərarın lehinədir?", "kim əleyhinədir?". Hər sualdan sonra millət vəkilləri mövqeyindən asılı olaraq əl qaldırırlar, ya da əl qaldırmırlar. Hesablayıcı Komissiya səsləri sayır və səsvermə qurtardıqdan sonra nəticələri elan edir.

19.6. Açıq səsvermə vasitəsilə adbaad səsvermə "sorğu vərəqi" ilə keçirilir. Xalq Parlamentinin Hesablayıcı Komissiyasının üzvlərindən biri sorğu vərəqəsi ilə iclasda iştirak edən millət vəkillərinin hər birinə yanaşıb sorğu vərəqini təqdim edir. Millət vəkili sorğu vərəqində mövqeyindən asılı olaraq "lehinə" və ya "əleyhinə" qrafalarının birində soyadını yazır və imza atır. Hesablayıcı Komissiya səsvermə bitəndən sonra səsləri hesablayır və sorğu vərəqini Xalq Parlamentinin iclasına sədrlik edənə verir. Xalq Parlamentinin iclasına sədrlik edən adbaad sorğu vasitəsilə keçirilən açıq səsvermənin nəticələrini elan edir.

19.7. Açıq səsverməyə başlamazdan əvvəl Xalq Parlamentinin iclasına sədrlik edən verilmiş təkliflərin sayı, məzmunu və ardıcıllığı haqqında, habelə məsələnin hansı səs çoxluğu ilə qəbul edilməsi haqqında məlumat verir.

## 20. **Gizli səsvermə**

20.1. Gizli səsvermə elektron sistemindən istifadə etməklə və ya bülletenlər vasitəsilə keçirilir.

20.2. Elektron sistemindən istifadə etməklə gizli səsvermə keçirilərkən millət vəkillərinin necə səs verdiyi haqqında məlumatlar ekranda göstərilmir, yalnız nəticələr elan edilir. 20.3. Bülletenlər vasitəsilə gizli səsvermə örtülü iclas salonunda keçirilir. Hesablayıcı Komissiya səsvermə bülletenlərini hazırlayır, səsvermə qutusunu yoxlayır, möhürləyir və millət vəkillərini siyahı ilə səs verməyə dəvət edir.

20.4. Hesablayıcı Komissiya səsvermənin gizliliyini təmin etmək üçün şərait yaratmalıdır. Millət vəkilləri siyahıya imza atıb səsvermə bülletenlərini alır, iclas salonunun hamı tərəfindən görünən yerində qurulmuş səsvermə kabinəsinə daxil olur və orada bülleteni doldurur.

20.5. Bülletendə millət vəkili "lehinə" və "əleyhinə" suallarının birini pozub birini saxlamalıdır.

20.6. Əgər gizli səsvermə namizədlər barəsində keçirilirsə, millət vəkili bülletendə lehinə səs verdiyi namizədin soyadını saxlayıb qalan namizədlərin soyadlarını pozur. 20.7. Doldurulmuş bülleteni millət vəkili şəxsən özü səsvermə qutusuna salır və sonra iclas salonunda əyləşir.

20.8. Bülletenlər vasitəsilə gizli səsvermə başa çatdıqdan sonra Hesablayıcı Komissiya iclas salonunda səsvermə qutusunu açır və səsləri hesablayır.

20.9. Gizli səsvermənin nəticələri barəsində protokol tərtib olunur. Bu protokolda siyahı üzrə

millət vəkillərinin sayı, səsvermədə istifadə edilmiş bülletenlərin sayı, istifadə edilməmiş bülletenlərin sayı, etibarlı bülletenlərin sayı, etibarsız bülletenlərin sayı, səsvermənin nəticələri göstərilir.

20.10. Hesablayıcı Komissiyanın müəyyənləşdirdiyi formada tərtib olunmayan bülletenlər, habelə "lehinə", "əleyhinə" sözlərinin heç birinin pozulmadığı, yaxud seçilməsi tələb edilən saydan çoxunun soyadının saxlanıldığı bülletenlər etibarsız sayılır.

20.11. Səsvermədə iştirak edən millət vəkillərinin siyahısı və səsvermə bülletenləri zərfə qoyulur və möhürlənir.

20.12. Səsvermənin nəticələri barədə protokolu Hesablayıcı Komissiyanın bütün üzvləri imzalayırlar. Hesablayıcı Komissiyanın protokolunu imzalamaqdan imtina edən komissiya üzvü protokola xüsusi rəy əlavə edə bilər və bu xüsusi rəyini dərhal elan edə bilər.

20.13. Hesablayıcı Komissiyanın sədri bülletenlər vasitəsilə keçirilən gizli səsvermənin nəticələrini elan edir.

20.14. Səsvermənin təkrar keçirilməsi.

20.14.1.İkidən çox namizəd barəsində səsvermə keçirildikdən sonra namizədlərin heç biri Xalq Parlamentinin Nizamnaməsində və bu Reqlamentdə nəzərdə tutulmuş səs çoxluğu yığa bilməzsə, daha çox səs yığmış iki namizəd arasında təkrar səsvermə keçirilir. 20.14.2.Təkrar səsvermədə ən çox səs toplamış namizəd seçilmiş sayılır.

### 21. **Təkrar səsvermə**

21.1. Səsvermənin nəticələri müəyyən edilərkən texniki (elektron sisteminin nasazlığı ilə əlaqədar) və ya prosedur səhvləri aşkar edilərsə, Xalq Parlamentinin protokol qaydasında qəbul edilmiş qərarı ilə təkrar səsvermə keçirilir.

### 22. **Xalq Parlamentinin iclaslarında elektron sistemindən istifadə**

22.1. Xalq Parlamentinin iclaslarında elektron sistemindən:

- millət vəkillərinin qeydiyyatı,
- onların çıxışlara yazılması,
- səsvermənin keçirilməsi üçün istifadə edilir.

22.2. Elektron sistemindən istifadəyə Xalq Parlamentinin Sədri nəzarət edir. 22.3. Elektron sistemi ilə millət vəkillərinin qeydiyyatdan keçməsinin, çıxışlara yazılmasının nəticələri və səsvermənin yekunları barədə iclas iştirakçılarına məlumat verilir və onlara göstərilir.

22.4. Bütün məlumatlar video çəkilişlər və azxp.info saytında yaymaqla yazılı məlumatlar formasında saxlanılır. Bu məlumatlar xalq üçün açıqdır və onlardan istifadə etmək istəyənlərə mane oluna bilməz.

22.5. Parlamentin qapalı iclasları haqqında məlumatlar yalnız Rəyasət Heyətinin yekdil səslə qəbul etdiyi qərar əsasında yayıla bilər.

22.6. Elektron sisteminin işində səhvlər haqqında şikayətlərə Rəyasət Heyəti kollegial olaraq baxır.

### 23. **Xalq Parlamentinin aktlarının qəbul edilməsi üçün tələb olunan səs çoxluğu**

23.1. Xalq Parlamentinin qərarları səsvermədə iştirak edən millət vəkillərinin ən azı yarısından çoxunun səsi ilə qəbul edilir.

23.2. Prosedur məsələləri ilə əlaqədar protokol qaydasında qərarlar, bu Reqlamentdə başqa qayda nəzərdə tutulmayıbsa, Parlamentin iclasında iştirak edən millət vəkillərinin sadə səs çoxluğu ilə qəbul edilir.

24. Xalq Parlamentinin strukturu (orqanları)

24.1. Xalq Parlamentinin Ali Orqanı.

24.1.1. Xalq Parlamentinin Ali Orqanı onun Millət Vəkillərinin ən azı üçdə birinin iştirakı ilə keçirilən ümumi toplantısıdır. Toplantılar iclas formasında, bir qayda olaraq, hər həftə keçirilir. İclasın gününü və vaxtını Rəyasət Heyəti təyin edir.

24.1.2. Xalq Parlamentinin birinci sessiyasının ilk iclasını millət vəkillərinin yaşlı üzvlərindən biri açır və onun təklifi ilə iclası davam etdirmək üçün 3 millət vəkilindən ibarət sədarət seçilir.

24.1.3. İclaslara sədrlik kollegial qaydada həyata keçirilir.

24.1.4. Sessiyanın ilk iclasında 5 millət vəkilindən ibarət tərkibdə Rəyasət Heyəti, 5 millət vəkilindən ibarət tərkibdə Hesablama Komissiyası, 5 millət vəkilindən ibarət tərkibdə İntizam Komissiyası seçilir.

24.1.5. İclaslar öz işini başa çatdıranadək bir neçə oturumda davam edə bilər.

24.1.6. Xalq Parlamentinə: “hörmətli millət vəkilləri”-deyə, Xalq Parlamentinin üzvünə: “hörmətli millət vəkili”-deyə, müraciət edilir.

24.1.7. Sessiya bu Nizamnamə və Xalq Parlamentinin Reqlamentinə uyğun olaraq, Xalq Parlamentinin fəaliyyəti ilə bağlı qərarlar qəbul edir.

24.1.8. Sessiyalar növbə ilə ildə üç dəfə, dörd aydan bir olmaqla, Rəyasət Heyəti tərəfindən çağırılır.

24.1.9. Növbədənkənar iclaslar Rəyasət Heyətinin və ya 20 Millət Vəkilinin təşəbbüsü ilə Parlament sədri tərəfindən çağırılır.

24.2. Rəyasət Heyəti.

24.2.1. Rəyasət Heyəti Xalq Parlamentinin ilk iclasında, gizli səsvermə yolu ilə, 5 millət vəkilindən ibarət tərkibdə seçilir.

24.2.2. Rəyasət Heyəti kollegial orqandır.

24.2.3. Rəyasət Heyəti Xalq Parlamentinə ümumi rəhbərliyi və toplantıların idarə edilməsini həyata keçirir.

24.2.4. Rəyasət Heyətinin üzvləri hər biri 7 (yeddi) ay olmaqla, səsvermə zamanı topladıqları saya müvafiq olaraq, növbəlilik əsasında Parlamentə sədrlik edir.

24.2.5. Rəyasət Heyəti səlahiyyət vermədən Parlamentin heç bir üzvü Parlamenti təmsil edə bilməz.

24.2.6. Rəyasət Heyətinin üzvləri bərabər hüquqlara malikdir və Xalq Parlamentinin Reqlamentində göstərilən hüquq və vəzifələr daşıyır.

24.2.7. Rəyasət Heyəti yanında Parlament Aparatı fəaliyyət göstərir.

24.2.8. Parlament Aparatının strukturu, tərkibi və iş qaydası Rəyasət Heyəti tərəfindən təsdiq edilən Əsasnamə ilə tənzimlənir.

24.2.9. Parlament Aparatı Parlament sədrinin rəhbərliyi altında fəaliyyət göstərir və Rəyasət Heyətinin tapşırıqlarını icra edir.

24.3. **Xalq Parlamentinin sədri.**

24.3.1. Xalq Parlamentinin iclaslarına sədrlik edir.

24.3.2. Xalq Parlamentinin adından sənədlər imzalayır.

24.3.3. Xalq Parlamentini beynəlxalq təşkilatlarda və digər orqanlarda təmsil edir.

24.3.4. Rəyasət heyətinin üzvləri arasında iş bölgüsü aparır.
24.3.5. Parlament Aparatına rəhbərlik edir, tapşırıqlar verir.
24.3.6. Reqlamentə əməl edilməsini və icra intizamını təmin edir.
24.3.7. Heç bir səbəb göstərmədən, Parlament iclaslarını aparmaq üçün öz səlahiyyətlərini Rəyasət Heyyətinin üzvlərindən birinə verə bilər.
24.3.8. Millət vəkilləri arasında sağlam münasibətlərin formalaşmasında iştirak edir. 24.3.9. Bu Reqlamentin 24.2.5.-ci maddəsinə uyğun olaraq, Parlament sədrini və ya Xalq Parlamentini təmsil etmək üçün ayrı-ayrı millət vəkillərinə səlahiyyət verir.
24.3.10.Parlament Sədri hər hansı bir səbəbdən vəzifəsini icra edə bilmədikdə, topladığı səsə müvafiq olaraq, Rəyasət Heyətinin növbəti üzvü Parlamentə sədrlik edir.

24.4. **Xalq Parlamentinin komitələri.**
24.4.1. Xalq Parlamentinin tərkibində aşağıdakı komitələr yaradılır:
24.4.1.1. Hüquq və dövlət quruculuğu komitəsi.
24.4.1.2. İnsan hüquqları komitəsi.
24.4.1.3. İqtisadiyyat və sosial siyasət komitəsi.
24.4.1.4. Təhsil və səhiyyə komitəsi.
24.4.1.5. Siyasət (daxili və xarici siyasət üzrə) komitəsi.
24.4.2. Bu komitələr nəzdində ayrı-ayrı sahələr üzrə alt komitələr də yaradıla bilər.
24.4.3. Xalq Parlamenti öz fəaliyyətində zəruri bildiyi başqa komitələr də yarada bilər.
24.4.4. Xalq Parlamentinin komitələri Xalq Parlamentinin səlahiyyət müddəti ərzində səlahiyyətlidir.
24.4.5. Xalq Parlamentinin komitələri Azərbaycan Respublikasının qanunları, Xalq Parlamentinin Nizamnaməsi və bu Reqlament əsasında fəaliyyət göstərir. 24.4.6. Xalq Parlamentinin komitələrinin fəaliyyəti:
24.4.6.1. fikir müxtəlifliyi,
24.4.6.2. siyasi plüralizm,
24.4.6.3. aşkarlıq,
24.4.6.4. əks fikirə dözümlülük,
24.4.6.5. təşəbbüs müəllifinin təşkilatçılığına şərait yaradılması,
24.4.6.6. qarşılıqlı yardım etmək,
24.4.6.7. bilik və bacarıqların qarşılıqlı ötürülməsi,
24.4.6.8. məsələlərin sərbəst müzakirəsi prinsipləri əsasında qurulur.
24.5. **Parlament komitəsinin tərkibi:**
24.5.1. Komitənin say tərkibi Xalq Parlamenti tərəfindən müəyyən edilir, lakin azı 5, çoxu 20 millət vəkilindən ibarət olmalıdır.
24.5.2. 15 millət vəkilindən çox üzvü olan komitə, ən azı 5 millət vəkilindən ibarət olmaqla, əlavə alt-komitələr yarada bilər.
24.5.3. Parlamentin Rəyasət Heyətinin üzvü ən çox beş komitənin üzvü ola bilər.
24.5.4. Hər bir millət vəkili ən azı komitələrdən birinin üzvü olmalıdır. 24.5.5. Bir millət vəkili ən çoxu iki komitənin üzvü ola bilər.
24.5.6. Komitənin sədri Parlamentin iclasında iştirak edən millət vəkillərinin ən azı yarısının səs çoxluğu ilə seçilir.
24.5.7. Millət vəkili heç bir komitənin üzvlüyünə daxil olmursa, Xalq Parlamentinin Sədri sərəncamla həmin millət vəkilini komitələrdən birinə daxil edir.
24.6. **Komitənin iclası.**
24.6.1. Üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.
24.6.2. Parlament Sədrinin tələbi ilə komitənin növbədənkənar iclası çağırıla bilər.

24.6.3. Komitəsinin iclası haqqında komitə üzvü iclas gününə azı 2 gün qalmış xəbərdar edilməlidir.
24.6.4. Komitənin üzvü olan millət vəkilinin komitənin iclasında iştirakı məcburidir.
24.6.5. Komitənin iclasında üzürsüz səbəbdən iştirak edə bilməyən millət vəkili komitənin sədrindən icazə almalıdır.
24.6.6. Komitənin iclaslarında həmin komitənin üzvü olmayan millət vəkilləri də məşvərətçi səslə iştirak edə bilər. Komitələrin sədrləri onların iclaslarına başqa şəxsləri (mütəxəssisləri) dəvət edə bilər.
24.6.7. Xalq Parlamentinin iki və ya daha çox komitəsi birgə iclas keçirə bilər.

24.7. **Komitənin idarə heyəti.**
24.7.1. Komitənin İdarə Heyəti 3 nəfərdən ibarətdir. İdarə Heyətinin qalan 2 üzvü komitənin üzvləri tərəfindən seçilir.
24.7.2. Komitənin iclasını sədr, o olmadıqda və ya onun tapşırığı ilə idarə heyətinin digər üzvləri aparır.
24.7.3. Komitənin sədri komitənin işinə rəhbərlik edir, onun iclasının gününü və saatını təyin edir, komitənin ayrı-ayrı üzvlərinə tapşırıqlar verir, komitənin işini Xalq Parlamentinin digər komitələrinin və başqa komissiyalarının işi ilə əlaqələndirir, komitənin iclasının protokolunu imzalayır.
24.7.4. Komitə İdarə Heyətinin üzvləri sədr olmadıqda onu əvəz edir, sədrin tapşırığı ilə komitənin müəyyən işlərinə rəhbərlik edir.

24.8. **Komitənin hüquqları.**
24.8.1. Komitənin, sənəd və qərar layihələrinin hazırlanması üçün zəruri olan sənədləri və materialları İdarə Heyyətindən, başqa komitələrdən, lazım olan dövlət orqanlarından və vəzifəli şəxslərdən tələb etmək, onların nümayəndələrini (ekspert və mütəxəssisləri) komitənin iclaslarına dəvət etmək hüququ vardır.
24.8.2. Komitənin sənəd və qərar layihələrinin hazırlanması üçün tələb etdiyi sənədləri və materialları Rəyasət Heyəti, başqa komitələr və millət vəkilləri 2 gün müddətində komitəyə göndərməlidir.
24.9. **Xalq Parlamentinin Hesablayıcı Komissiyası.**
24.9.1. Hesablayıcı Komissiya 5 millət vəkilindən ibarət tərkibdə Parlamentin birinci iclasında, gizli səsvermə yolu ilə seçilir.
24.9.2. Hesablayıcı Komissiya öz üzvləri sırasından komissiyanın sədrini, müavinini və katibini seçir.
24.9.3. Hesablayıcı Komissiyanın tərkibi hər əlavə və yeni seçkilərdən sonra dəyişdirilə bilər.
24.9.4. Hesablayıcı komissiyanın vəzifəsi Xalq Parlamentinin internet üzərindən keçirilən iclaslarında açıq və adbaad səsvermələrin və qapalı yerlərdə keçirilən iclaslarında açıq və gizli səsvermələrin, eləcə də adbaad səsvermənin nəticələrini hesablamaq və onları Parlament Sədrinə təqdim etməkdən ibarətdir.
24.9.5. Hesablayıcı Komissiyanın iclası onun ən azı 3 üzvü iştirak etdikdə səlahiyyətlidir.
24.9.6. Hesablayıcı Komissiyanın bütün qərarları onun iclaslarında iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.
24.9.7. Hesablayıcı Komissiyasının qərarı ilə razı olmayan onun üzvü komissiyanın yekun protokolunda xüsusi rəyini əks etdirə bilər və Xalq Parlamentinin iclasında xüsusi rəylə çıxış edə bilər.
24.9.8. Xalq Parlamentinin Rəyasət Heyətinin seçkiləri keçirilərkən, Xalq Parlamentinin Rəyasət Heyətinə namizədliyi göstərilmiş hər namizəd Hesablayıcı Komissiyanın

tərkibinə əlavə bir üzv daxil edə bilər. Hesablayıcı Komissiyanın bu üzvləri yalnız Xalq Parlamentinin Rəyasət Heyyətinin seçkiləri zamanı komissiyanın üzvü olur.

24.10. **İntizam Komissiyası.**

24.10.1. Növbəti çağırış Xalq Parlamentinin birinci iclasında İntizam Komissiyası yaradılır.

24.10.2. İntizam Komissiyasının tərkibi hər əlavə və yeni seçkilərdən sonra dəyişdirilə bilər.

24.10.3. İntizam Komissiyası Xalq Parlamentinin millət vəkilləri sırasından 3 il müddətinə 5 üzvdən ibarət tərkibdə seçilir.

24.10.4. Seçildikdən sonra İntizam Komissiyası öz üzvləri sırasından komissiyanın sədrini, sədr müavinini və katibini seçir.

24.10.5. İntizam komissiyasının səlahiyyətlərinə aşağıdakılar aiddir:

24.10.5.1. "Azərbaycan Respublikası Xalq Parlamentinə namizədin və Xalq Parlamentinin millət vəkilinin etik davranış qaydaları haqqında" Təlimatla müəyyən edilmiş etik davranış qaydalarına riayət edilməsinə nəzarət etmək və bu məsələlərlə bağlı müraciətlərə baxmaq;

24.10.5.2. Etik davranış qaydaları barədə millət vəkillərini məlumatlandırmaq, bu qaydalarla bağlı rəy və tövsiyələr vermək, həmin qaydaların pozulmasının qarşısının alınması üçün tədbirlər görmək və görülən tədbirlərə dair mütəmadi ümumiləşdirmələr aparıb Rəyasət Heyətinə məlumat vermək;

24.10.5.3. Bu Reqlamentdə və Xalq Parlamentinin Nizamnaməsində göstərilən əsaslara görə, Xalq Parlamentinin, yaxud onun komitə və ya komissiyasının iclasına sədrlik edənin təqdimatı əsasında araşdırma aparmaq və müvafiq əsaslar aşkar etdikdə Xalq Parlamentinin millət vəkili barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul etmək;

24.10.5.4. Bu Reqlamentdə və Xalq Parlamentinin Nizamnaməsində göstərilən əsaslara görə, Xalq Parlamenti Sədrinin təqdimatı əsasında araşdırma aparmaq və müvafiq əsaslar aşkar etdikdə Xalq Parlamentinin millət vəkili barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul etmək, yaxud Xalq Parlamentinin millət vəkilinin səlahiyyətlərinin itirilməsi intizam tədbirinin tətbiq edilməsi barədə rəy qəbul edib Xalq Parlamentinin müzakirəsinə təqdim etmək;

24.10.5.5. Xalq Parlamentinin millət vəkilinin səlahiyyətlərinə xitam verilməsi haqqında Seçki Komissiyasının təqdimatına Xalq Parlamenti Sədrinin göndərişi əsasında baxıb müvafiq rəy qəbul etmək və Xalq Parlamentinin müzakirəsinə təqdim etmək;

24.10.5.6. Xalq Parlamenti Sədrinin təqdimatı əsasında araşdırma aparmaq və müvafiq əsaslar aşkar etdikdə Xalq Parlamentinin millət vəkilinin mandatından məhrum edilməsi haqqında qəbul etdiyi rəyi həmin dövrdə Parlamentə sədrlik edənə təqdim etmək;

24.10.5.7. Bu Reqlamentdə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək. 24.10.6. İntizam Komissiyasının iclası onun ən azı 3 (üç) üzvü iştirak etdikdə səlahiyyətlidir. 24.10.7. İntizam Komissiyasının bütün qərarları (rəyləri) onun iclaslarında iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

24.10.8. Komissiyasının rəyi ilə razı olmayan komissiya üzvü xüsusi rəyini protokola əlavə edə bilər və həmin xüsusi rəylə Xalq Parlamentinin iclasında çıxış edə bilər.

24.10.9. İntizam Komissiyasının rəy verilməsi məqsədi ilə keçirilən iclaslarında hüquqşünas ekspertlərin (mütəxəssislərin) köməyindən istifadə edilə bilər. Ekspertlər (mütəxəssislər) İntizam Komissiyası ilə ictimai əsaslarla əməkdaşlıq edə bilər.

24.11. **Xalq Parlamentinin daimi və müvəqqəti komissiyaları.**

24.11.1. Seçki Komissiyası.
24.11.2. Seçki Komissiyası Təsis toplantısında gizli və ya açıq səsvermə yolu ilə, 7 nəfərdən ibarət tərkibdə formalaşdırılır.
24.11.3. Seçki Komissiyasının tərkibi Xalq Parlamenti tərəfindən dəyişdirilə bilər. 24.11.4. Seçki Komissiyası Xalq Parlamentinə millət vəkilliyinə namizədlərin müraciətlərinə baxır, namizədləri qeydə almaq üçün onlar haqqında zəruri məlumatları toplayır, qanuni əsaslar olduğu halda, onları qeydə almaqdan imtina edir və ya artıq qeydə alınmış namizədlərin qeydiyyatını ləğv edir.
24.11.5. Seçkilərin keçirilməsi qaydalarını və vaxtını müəyyən edir, Təşəbbüs Qrupunun üzvləri və Təsisçilərlə birlikdə Xalq Parlamentinə birinci çağırış seçkiləri təşkil edir, müstəqil olaraq səsləri hesablayır, seçki nəticələrini rəsmiləşdirir və elan edir.
24.11.6. Seçki Komissiyasının tərkibi Xalq Parlamenti millət vəkillərinin sadə səs çoxluğu ilə buraxıla və ya dəyişdirilə bilər.
24.11.7. Seçki Komissiyasında boş qalan və ya boşalan yerlərə əlavə üzvlər Parlament tərəfindən seçilir.
24.11.8. Seçki Komissiyası Xalq Parlamentinin ilk iclasına qədər təsisçilər qarşısında, Xalq Parlamenti formalaşdıqdan sonra Parlament qarşısında hesabatlıdır.
24.11.9. Xalq Parlamentinin millət vəkillərinindən və digər şəxslərdən (mütəxəssislərdən) ibarət müvəqqəti komissiyalar yaradıla bilər.
24.11.10. Xalq Parlamentinin müvəqqəti komissiyasının tərkibi, vəzifələri, səlahiyyətləri və fəaliyyət müddəti Xalq Parlamentinin qərarı ilə müəyyən edilir.

25. **Xalq Parlamentində fraksiya (qrup) fəaliyyəti**

25.1. Xalq Parlamentinin ən azı 13 millət vəkili könüllü birləşərək fraksiyalar (qruplar) yarada bilər.
25.2. Fraksiyanın (qrupun) yaradılması barədə bəyanat Xalq Parlamentinin iclasında oxunur və fraksiya (qrup) Xalq Parlamentinin Rəysət Heyəti tərəfindən qeydiyyata alınır. 25.3. Fraksiya (qrup) Xalq Parlamentinin gündəliyinə salmaq üçün təkliflər verə bilər və onun bu təklifi mütləq gündəliyə salınmalıdır.
25.4. Fraksiya (qrup) Parlamentin müzakirəsinə çıxarılmış bütün məsələlərə dair münasibət bildirə bilər və onun bu hüququ mütləq təmin edilməlidir.
25.5. Millət vəkillərinin fraksiyadan (qrupdan) çıxması nəticəsində fraksiyanın (qrupun) tərkibi 13 millət vəkilindən az olarsa, fraksiya (qrup) ləğv edilmiş sayılır və bu barədə Xalq Parlamentinin iclasında elan edilir.

26. **Xalq Parlamentinin Mətbuat Xidməti**

26.1. Xalq Parlamentinin, Rəyasət Heyətinin rəhbərliyi altında fəaliyyət göstərən, ən azı 3 (üç) nəfərdən ibarət Mətbuat Xidməti vardır.
26.2. Mətbuat Xidmətinin sədrini Rəyasət Heyətinin razılığı ilə Parlament sədri təyin edir və Mətbuat Xidməti Xalq Parlamenti Rəyasət Heyətinin tapşırıqlarına, bu Reqalamentə uyğun fəaliyyət göstərir.
26.3. Mətbuat Xidməti bu Reqlamentdə nəzərdə tutulan sənədlərin vaxtında yayılmasını, ictimaiyyətə çatdırılmasını və ictimai müzakirəsini təşkil edir.

27. **Millət vəkillərinin intizam məsuliyyəti**

27.1. Millət vəkilləri aşağıdakı hallarda intizam məsuliyyətinə cəlb edilirlər: 27.1.1. "Azərbaycan Respublikası Xalq Parlamentinə namizədin və Xalq Parlamenti millət vəkilinin etik davranış qaydaları haqqında" Təlimat ilə müəyyən edilmiş etik davranış qaydalarını pozduqda,

27.1.2. Xalq Parlamentinin, yaxud onun komitə və komissiyalarının iclaslarında üzürsüz səbəbdən iştirak etmədikdə.

27.1.3. Onlara verilən tapşırıqları üzürsüz səbəbdən yerinə yetirmədikdə. 27.2. İntizam məsuliyyətinə cəlb olunan millət vəkilinə tətbiq edilən intizam tədbirləri. 27.2.1. Bu Reqlamentdə və Xalq Parlamentinin Nizamnaməsində göstərilən əsaslara görə, millət vəkili barəsində aşağıdakı intizam tədbirlərindən biri tətbiq edilir: 27.2.1.1. xəbərdarlıq;

27.2.1.2. söz kəsmə;

27.2.1.3. iclas salonundan (virtual toplantıdan) çıxarma;

27.2.1.4. töhmət;

27.2.1.5. millət vəkili səlahiyyətlərinin itirilməsi;

27.3. **İntizam tədbirlərinin tətbiqi qaydası.**

27.3.1. Bu Reqlamentdə və Xalq Parlamentinin Nizamnaməsində göstərilən əsaslara görə, Xalq Parlamentinin, yaxud onun komitə və ya komissiyasının iclasına sədrlik edən tərəfindən Xalq Parlamentinin millət vəkili barəsində xəbərdarlıq, söz kəsmə və ya iclas salonundan çıxarma intizam tədbiri tətbiq edilir, yaxud töhmət intizam tədbirinin tətbiq edilməsi üçün İntizam komissiyasına təqdimatla müraciət edilir. İntizam komissiyası 1 həftə müddətində apardığı araşdırma nəticəsində müvafiq əsaslar aşkar etdikdə Xalq Parlamentinin millət vəkili barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul edir.

27.3.2. Bu Reqlamentdə və Xalq Parlamentinin Nizamnaməsində göstərilən əsaslara görə, Xalq Parlamentinin Sədri millət vəkili barəsində İntizam Komissiyasına təqdimatla müraciət edir. İntizam Komissiyası 3 gün müddətində apardığı araşdırma nəticəsində müvafiq əsaslar aşkar etdikdə millət vəkili barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul edir.

27.3.3. Bu Reqlamentdə və Xalq Parlamentinin Nizamnaməsində göstərilən əsaslara görə, Xalq Parlamentinin və onun komitə və komissiyalarının iclaslarında üzürsüz səbəbdən ən azı dalbadal 3 (üç) və ya bir ayda üst-üstə 5 (beş) iclasda iştirak etməyən Xalq Parlamentinin millət vəkili barəsində Xalq Parlamentinin Sədri İntizam Komissiyasına təqdimatla müraciət edir. İntizam Komissiyası 1 həftə müddətində apardığı araşdırma nəticəsində müvafiq əsaslar aşkar etdikdə Xalq Parlamentinin millət vəkili barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar qəbul edir.

27.3.4. Xalq Parlamentinin millət vəkili barəsində töhmət intizam tədbirinin tətbiq edilməsi haqqında qərar Xalq Parlamentinin növbəti iclasında elan edilir.

27.3.5. Bu Reqlamentdə və Xalq Parlamentinin Nizamnaməsində göstərilən əsaslara görə, Xalq Parlamentinin Sədri Xalq Parlamentinin növbəti sessiyasının bütün iclaslarında və ya il ərzində Xalq Parlamentinin 10 (on) iclasında üzürsüz səbəbdən iştirak etməyən millət vəkili barəsində İntizam Komissiyasına təqdimatla müraciət edir. İntizam Komissiyası 3 (üç) gün müddətində apardığı araşdırma nəticəsində müvafiq əsaslar aşkar etdikdə millət vəkili barəsində millət vəkili səlahiyyətlərinin itirilməsi intizam tədbirinin tətbiq edilməsi haqqında rəy qəbul edir və Xalq Parlamentinin müzakirəsinə çıxarır. Bu məsələyə Xalq Parlamentinin növbəti iclasında səlahiyyətlərinin itirilməsi nəzərdə tutulan millət vəkilinin iştirakı ilə baxılır. Həmin millət vəkilinin iclasda iştirakı mümkün olmadıqda bu məsələyə onun iştirakı olmadan baxılır. İclasda iştirak edən Xalq Parlamentinin millət vəkilləri yalnız millət vəkili səlahiyyətlərinin itirilməsi üçün yetərli əsasların olub-olmamasını aydınlaşdıra bilər, İntizam Komissiyasının üzvlərinə suallar verə bilər və millət vəkilinin

səlahiyyətlərinin itirilməsinin lehinə və ya əleyhinə çıxış edə bilər. Xalq Parlamentinin millət vəkilinin səlahiyyətlərinin itirilməsi barədə Xalq Parlamentinin qərarı iclasda iştirak edən millət vəkillərinin yarıdan çoxunun səsi ilə qəbul edilir.

28. **Bu Reqlamentin icrasına nəzarət.**

28.1. Bu Reqlamentin icrasına nəzarət Xalq Parlamentinin Rəyasət Heyəti tərəfindən həyata keçirilir.

28.2. Reqlamentin pozulması halları barədə hər bir millət vəkilinin Rəyasət Heyətinə və ya İntizam Komissiyasına məlumat vermək və nəticəsi ilə bağlı məlumat almaq hüququ vardır.

29. **Xalq Parlamentinin xərclər smetasının təsdiqi.**

29.1. Xalq Parlamentinin xərclər smetası Xalq Parlamentində növbəti ilin büdcəsinə baxılarkən təsdiq edilir.

29.2. Büdcənin mədaxil və məxarici barədə Rəyasət Heyəti Xalq Parlamentinə, hər 3 ayda bir dəfədən az olmamaqla, hesabat verir.

29.3. Hər bir millət vəkili büdcənin mədaxil və məxarici barədə Rəyasət Heyətindən fərdi qaydada sorğu verib məlumat almaq hüququna malikdir.

29.4. Xalq Parlamentinin, imzası Parlament sədri tərəfindən təsdiq edilən, maliyyə meneceri vardır.

29.5. Maliyə meneceri ona verilən səlahiyyətlərə uyğun olaraq, Xalq Parlamentinin adından bütün maliyyə sənədlərini (bank hesablarının imzalanması, maliyyə hesabat sənədləri, hesablaşmaların aparılması, pul köçürmələri və s.) imzalamaq hüququna malikdir.

30. **Xalq Parlamentinin sənədlərinin dərc edilməsi.**

30.1. Xalq Parlamentinin qərarları azxp.info saytında 3 gün müddətində dərc edilir.

30.2. Parlament sənədlərinin vaxtında yayılmasına nəzarəti Parlamentin sədri edir.

30.3. Parlament sənədlərinin vaxtında yayılması Mətbuat Xidmətinin vəzifəsidir.

31. **Xalq Parlamentinin buraxılması.**

31.1. "Azərbaycan Xalq Parlamenti" onun Təsis Bəyannaməsində nəzərdə tutulan vəzifələrini yerinə yetirdikdən sonra buraxılır.

31.2. "Azərbaycan Xalq Parlamenti" buraxılarkən onun balansında olan bütün əmlakı Azərbaycan dövlətinin büdcəsinə verilir.